# Antikorrupsiya Strategiyası: Hüquqi alətlər və praktiki tədbirlər

**"Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir. Mən vətəndaşlardan minlərlə məktub alıram. Onlar mənim bu addımlarımı alqışlayır və eyni zamanda, bəzi məsələlərə diqqətimi çəkir. Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram... Korrupsiya və rüşvətxorluq halları bütün ölkələrdə var. Əsas məsələ odur ki, dövlət və hökumət bu məsələlərə hansı prizmadan yanaşır. Azərbaycanda bu məsələlərə dözümlülük sıfır səviyyəsindədir və hesab edirəm ki, gördüyümüz işlər bunu təsdiqləyir. Təkcə yerli icra orqanlarının rəhbərləri yox, eyni zamanda, mərkəzi icra orqanlarının rəhbərləri də məsuliyyətə cəlb edilibdir və bu məsələlər ictimailəşdirilir. İctimaiyyət görülmüş bütün işlərdən xəbərdar olmalıdır və eyni zamanda, mənim insanların vəzifələrə təyinatı ilə bağlı tövsiyələrim artıq ictimaiyyətə çatdırılır".**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***

Ölkəmizdı milli antıkorrupsiya strategiyası ötən əsrin 60-cı illərinin sonlarında ümummilli lider Heydər Əliyevin qoyduğu ideologiyaya əsaslanır. O, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul Plenumunda Sovet İttifaqı tarixində ilk dəfə olaraq SSRİ-də korrupsiyanın mövcud olduğunu açıq şəkildə bəyan etmiş və ən yüksək səviyyədə həll edilməsi üçün kompleks, təşkilati və hüquqi tədbirlərin aparılmasının zəruriliyini əsaslandırmışdır. Sonralar SSRİ-nin ali rəhbərliyi bu cəsarətli təşəbbüsü Sovet İttifaqı Kommunist Partiyasının korrupsiyaya qarşı fəal mübarizəsinin nümunəsi kimi dünya ictimaiyyətinin nəzərinə çatdırmışdır. Bu haqda Heydər Əliyev 22 may 1996-cı ildə "Oqonyok" jurnalının müxbirlərinə verdiyi müsahibəsində demişdir: "...indi korrupsiya ilə hamı mübarizə aparır. İndi heç kim demir ki, korrupsiya yoxdur. Ancaq o vaxtlar Sovetlər İttifaqında belə halın olduğunu etiraf etməyə qorxurdular. Mən isə bəyan etdim ki, Azərbaycanda rüşvətxorluq, korrupsiya var və bunlara qarşı mübarizə aparmaq lazımdır. Yəni, Azərbaycan açıqlıq, aşkarlıq baxımından müsbət mənada fərqlənirdi".

Bu gün isə Azərbaycanda həmin fəaliyyət ölkə Prezidenti İlham Əliyevin timsalında yeni dövrün tələbləri kontekstində daha geniş vüsət almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətlərindən olan Korrupsiyaya qarşı mübarizə sahəsində aparılan ardıcıl və məqsədyönlü işlər çərçivəsində son aylar ərzində bir sıra mühüm normativ hüquqi aktlar qəbul edilmiş, zəruri institusional tədbirlər həyata keçirilməkdədir. 2003-cü ildə ilk dəfə ölkə Prezidenti vəzifəsinə seçildikdən cəmi bir neçə ay sonra cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisə təqdim etdiyi "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun layihəsi 13 yanvar 2004-cü il tarixində ölkə parlamenti tərəfindən qəbul olunaraq, 2005-ci il yanvarın 1-dən qüvvəyə minmiş və ötən dövr ərzində çoxsaylı əlavə və dəyişikliklər sayəsində təkmilləşdirilmişdir.

Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə görülən tədbirlər çərçivəsində ciddi qərarlar qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı (2007), Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər), 2012-2015-ci illərdə reallaşdırılmış Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət planları da bu sahədə əldə edilmiş sanballı uğurların normativ-hüquqi əsasını təşkil etmişdir. Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması üçün son vaxtlarda həyata keçirilmiş tədbirlər prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən yüksək etimadın təzahürüdür.




Prezident İlham Əliyev mütəmadi olaraq öz çıxışlarında mənfi halların, korrupsiyanın aradan qaldırılması məsələsini qeyd edir və bu istiqamətdə çox ciddi tapşırıqlar verir. Son illər biz həm də korrupsiya faktlarına görə bir sıra vəzifəli şəxslərin həbs olunmasının şahidi olmuşuq. Bu gün korrupsiya ilə mübarizənin uğurlu göstəricilərindən biri də Azərbaycanda "ASAN Xidmət"in fəaliyyət göstərməsidir. Bu xidmət korrupsiya hallarını tam istisna edir və vətəndaşların dövlət qurumlarına etimadını artırır. "ASAN Xidmət" bütün dünyada Azərbaycanın brendi olaraq tanınır və xarici dövlətlər bu təsisata böyük maraq göstərərək, ölkəmizin təcrübəsini öyrənirlər. Eyni zamanda məmur-vətəndaş münasibətlərinin daha sivil səviyyədə formalaşması üçün konkret addımlar atılır. Bu münasibətlərdə birbaşa temasların aradan qaldırılması üçün ardıcıl işlər görülür, elektron hökumət yaradılır.

Korrupsiyaya qarşı mübarizədə ölkəmiz müxtəlif xarici ölkələrlə aktiv əməkdaşlıq edir, BMT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsi, Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO), Avropa Şurası və Beynəlxalq Antikorrupsiya Akademiyası, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası və Beynəlxalq Prokurorlar Assosiasiyası ilə davamlı tərəfdaşlıq əlaqələri qurmuşdur. Bu günə kimi biz BMT-nin Korrupsiyaya qarşı Konvensiyasını, Avropa Şurasının Korrupsiya ilə əlaqədar Cinayət Hüququ Konvensiyasını və bu sahədə digər beynəlxalq aktları ratifikasiya etmiş və bu aktlardan irəli gələn müddəa və öhdəliklər milli qanunvericiliyin müxtəlif sahələrinə implementasiya olunmuşdur. OECD-nin, GRECO-nun tövsiyələri və yeni çağırışlar nəzərə alınmaqla ölkənin antikorrupsiya qanunvericiliyinin sistemli təkmilləşdirilməsi prosesi bu gün də davam edir. Azərbaycan həmçinin ötən il 2 önəmli beynəlxalq antikorrupsiya konfransına ev sahibliyi edib. Hansı ki, həmin konfranslarda da ölkəmizin nailiyyətləri xarici ekspertlər tərəfindən də vurğulanıb.

Prezident İlham Əliyevin tapşırığı ilə nazirlər və dövlət nümayəndələri regionlarda vətəndaşlarla mütəmadi olaraq görüşlər keçirir. Bütün bunlar korrupsiyanın qarşısının alınması istiqamətində atılan ciddi addımlardır. Korrupsiyaya qarşı mübarizənin ən effektiv hissələrindən biri də hökumət nümayəndələri, nazirlərin mütəmadi olaraq regionlarda vətəndaşları qəbul etməsidir. Bütün bu işlər prezidentin tapşırığı ilə həyata keçirilir. Ümumiyyətlə götürdükdə korrupsiya ilə mübarizəyə Prezident İlham Əliyev ciddi şəkildə yanaşır və kəskin addımlar atır. Korrupsiya ilə bağlı öz fikirlərini də deyib. Bu sahədə həyata keçirilən işlərin istiqamətvericisi əlbəttə ki, dövlət başçısıdır. Nazirlərin yerlərdə vətəndaşlarla açıq söhbət aparması, görüşlərin keçirilməsi də korrupsiya hallarının qarşısının alınmasına öz töhfəsini verir.

Şübhə yoxdur ki, ölkə Prezidenti cənab İlham Əliyevin korrupsiya ilə mübarizəyə verdiyi önəmin ifadəsi kimi ərsəyə gələn milli fəaliyyət planında əks etdirilmiş kompleks tədbirlərin icrası ölkəmizdə bu sahədə həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi olaraq şəffaflığın artırılmasına, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, ictimai nəzarətin təşkilində və korrupsiyanın ifşa olunmasında vətəndaş cəmiyyəti institutlarının rolunun artırılmasına xidmət edəcəkdir.

***Natiq ABBASOV***

***Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı***